

**Oktay ABDULLA**

## SALAM

Düşübdü güzarım bu gün dağlara,
A şır-şır bulaqlar, a yerlər, salam.
Üşüdüb həsrətin o qədər məni,
Yurd yeri, obalar, a ellər, salam.

Axşama az qalır, günəş fağırdı,
Kölgələr əl edib məni çağırdı.
A dostlar söyləsəm, uzun nağıldı,
Keçmişim, sabahım, ay illər, salam.

Güneydə çiçəyin, qüzeydə qarın,
Titrəsin buludlar ələsin narın.
Bir ayrı dadı var, yazın-baharın,
Oylağım, məskənim, a çöllər, salam.

Diz çökdüm önündə çəmən, çiçəyim,
Sevinsin qoy bu gün əlim, ətəyim.
Dünyada sevdiyim gözəl, göyçəyim,
Bənövşəm, nərgizim, a güllər, salam.

Çəkilmir başından dumanı, çəni,
Bir baxış, min sual göynədir məni.
Hər qayan, hər daşın söylədir məni.
A dərin dərələr, a göllər, salam.

Ah, dolur, boşalır gözlərim hərdən,
Çağlayan çayların düşmür bəhərdən.
Boylandım hüsnünə qərinələrdən,
Ər oğlu ərənlər, a bəylər, salam.

Baxıram göylərə sonsuz asiman,
Gündüzü, gecəsi sirli kəhkəşan.
Memarı sən oldun uca Yaradan,
Görüb-görmədiyim ay izlər, salam.

Duyğusal şairlər sözə can atmış,
Söz də var, incisi ruhuma yatmış.
Tanrı kainatı gözəl yaratmış,
Qoy baxım doyunca, a göylər, salam.

A dağlar, darıxdın, Oktaya səsdən,
Ey ruhum, ey təbim, düşmə həvəsdən,
Nəğməkar bulaqlar oxuyur pəsdən,
Anamın laylası, a dillər, salam.

## GƏL

*(Şair dostum
Məhərrəm Firuddinoğluna cavab)*

Şair dostum, çox gəlmişəm, gəlmərəm,
Gəl, qurtardı, daha yoxdu məndə gəl.
Ağır ellər şan-şöhrətim, cəlalım,
Qurban kəsim yollarına, gündə gəl.

Qoşqarı da gətirərsən özünlə,
Gözləyirəm yollarını dözümlə.
Ovut məni hikmətinlə, sözünlə,
Söhbət edək, bir dərdləşək, kəndə gəl.

Dost demişəm, dəyişməzdi amalım,
Sənin dərdin, mənim dərdim, məlalım.
Söz sərrafı, kamalından kam alım,
Allah qulu, insan oğlu, bəndə, gəl.

Ayrı düşdün mahalından, elindən,
Düyün vurun, asın məni dilimdən.
Yaşamağa haqqım varmı bilim mən,
Günahkaram, günahım çox, məndə gəl.

Dərd əhlisən, dərd əhliyəm, kef hara,
Bu könlümü isti-isti bir ara.
Qoy tutuşum, qoy alışım, çək dara,
Bu tonqala, bu ocağa sən də gəl.

Arzularım güləcəkdi o yerdə,
«Axıt» məni ya Arazda, ya Kürdə.
Əlac varmı bu həsrətə, bu dərdə,
Deyim sənə xoş günümdə, gendə gəl.

Oktay deyir xəyallara dalmışam,
Zəngəzuru, həm Göyçəni «almışam».
Neçə kərə kövrəlmişəm, dolmuşam,
Yağışda gəl, dumanda gəl, çəndə gəl.